# QƏRBİ KASPİ UNİVERSİTETİ

# KEYFİYYƏT TƏMİNATI MƏRKƏZİNİN İLLİK HESABATI

QKU-nun Elmi Şurasının
30.06.2023-ci il tarixli 11 №-li
protokolu ilə təsdiq edilmişdir.

BAKI-2023

KEYFİYYƏT TƏMİNATI MƏRKƏZİNİN

2024/2025-cü tədris ilinə görülmüş işlərin

# İLLİK HESABATI

## Giriş

Qərbi Kaspi Universitetində təhsildə keyfiyyətin artırılmasını təmin etmək məqsədilə 2017-ci ildə İmtahan və Keyfiyyətə Nəzarət Mərkəzi yaradılmışdır. 2020-ci ildən "Keyfiyyətə Nəzarət Mərkəzi" müstəqil olaraq fəaliyyətinə davam etmişdir. 2021-ci ildə Mərkəzin strukturunda dəyişikliklər edilmiş, "Keyfiyyət Təminatı Mərkəzi" adlandırılaraq yeni Əsasnaməsi qəbul olunmuşdur.

**QKU Keyfiyyət Sistemi**

Keyfiyyət Təminatı Mərkəzinin iş prinsipi Avropa Ali Təhsil Sahəsində Keyfiyyət Təminatı Standartları və Təlimatlarında (ESG 2015) müəyyən edilmiş Daxili Keyfiyyət Təminatı Standartlarına istinadla ümumiləşdirilmişdir.

**Keyfiyyət Təminat Mərkəzinin əsas funksional fəaliyyəti aşağıdakılardır:**

1. Universitetin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunun qiymətləndirilməsi;
2. Universitetdə səmərəli və müasir tədris mühitinin yaradılması və işlək vəziyyətdə saxlanılması;
3. Universitetin fəaliyyətinin özünütəhlil əsasında davamlı inkişaf etdirilməsinin təmin edilməsi;
4. Keyfiyyət təminatı istiqamətində yerli və beynəlxalq qiymətləndirmə agentlikləri ilə əməkdaşlıq etmək..
5. Keyfiyyətin təminatı sisteminin təşkil edilməsi;
6. Bütün mənbələrdən KTS üçün vacib məlumatların / göstəricilərin toplanmasının koordinasiyası;
7. Maraqlı tərəflərin gözləntilərinin müəyyənləşdirilməsi;
8. Universitetin və fakültələrin bölmələrinə özünü qiymətləndirmənin təşkilində, həyata keçirilməsində və akkreditasiya hazırlıqlarında konsultasiya dəstəyi;
9. Keyfiyyət təminatı üzrə mütəmadi daxili təlimlərin keçirilməsi;
10. Universitetin digər struktur bölmələri ilə birgə Keyfiyyət təminatı prosesinə xarici maraqlı tərəflərin cəlb olunması;
11. Avropa, milli və istitusional səviyyədə təlim və tədris üzrə keyfiyyət təminatı sistemlərinin ümumi çərçivəsinin müəyyənləşdirilməsi;

Keyfiyyətin Təminatı Mərkəzi 2022/2023-ci tədris ili üzrə fəaliyyətini 6 bölmə üzrə qurmuşdur.

1. **Ümumi fəaliyyət üzrə:**

1.1. Tədris planlarının mütəmadi təhlili və yeni tələblərə uyğun təkliflərin verilməsi məqsədilə KTM in təşəbbüsü ilə 20.12.2022-ci il tarixli, 24/2/ü nömrəli əmrlə 3 ixtisasın tədris planlarının təhlil edilməsi və yeni təkliflərin verilməsi üçün 2 ayrı tərkibdə işçi qrup yaradıldı. İşçi qrupa ixtisas üzrə mütəxəssislər cəlb edildi. Hər üç ixtisasın planları araşdırıldı və işin nəticəsi barədə arayışlar hazırlandı. Mühasibat uçotu ixtisası üzrə arayışda ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərdə qeyri-müəyyənliklərin olduğu, tədris yüklərinin əsasən Payız semestrinə düşməsi, qeyd olunub. Bu ixtisasın tədris planındakı qeyri-müəyyən fənlərin - Audit standartlarının nəzəri əsasları (II blok), Təftiş və nəzarət (IV blok), Qeyri-büdcə fondlarına nəzarət və onun auditi (V blok), Vergitutmanın auditi (X blok) kimi fənlərin adlarının dəqiqləşdirilməsi müvafiq sahənin mütəxəssisləri ilə müzakirə edildikdən sonra tədris hissəsinə təqdim edilməsi təklif edilmişdir.

Maliyyə ixtisası üzrə komissiya Mikroiqtisadiyyat və makroiqtisadiyyat fənlərinin daha əvvəlki semestrə keçirilməsini tövsiyyə edir. Tədris planında fənlərin məntiqi ardıcıllığının gözlənilməli olduğu tövsiyyə edilib.

Meşəçilik ixtisası üzrə Komissiya arayışda bəzi fənlərin adlarının dəyişdirilməsi, seçmə fənlərin ixtisas tələblərinə uyğun olaraq təklif edilməsini, fənlərin tədrisində məntiqi ardıcıllığın gözlənilməsini, semestrlər üzrə bərabər bölünməsini tövsiyyə edib. Hesabatdakı təkliflərin növbəti tədris ilində nəzərə alınması nəzərdə tutulur. Qarşıda digər ixtisasların tədris planlarının təhlil edilməsi planlaşdırılır.

1.2. Dərsin düzgün qurulması, müvafiq sənədlərin (proqram, sillabus, mühazirə mətnləri) standartlara uyğunluğu, dərsin izahında materialların səlist dildə çatdırılması, tələbələrin dərsə marağının artırılması barədə tövsiyyə hazırlanıb və əlçatanlıq üçün Share Pointda yüklənib.

1.3. 2022/2023-cü tədris ili ərzində tələbələr arasında keçirilmiş sorğuların nəticələri təhlil edilmişdir. Tələbə məmnuniyyətinin zəif olduğu bəndlərin aradan qaldırılması üçün təkliflər hazırlanmışdır.

**Sual-1-Qəbul olduğunuz ixtisasa necə düşmüsünüz?**

1. Öz istəyimlə - 71%

2. Valideynlərimin istəyi ilə - 8%

3. Çöldə qalmamaq üçün - 21%

**Tövsiyyə -**Tədqiqatlar göstərir ki, abituriyentlərin böyük əksəriyyəti gələcək ixtisas və peşələri ilə bağlı qərar qəbul etməkdə çətinlik çəkirlər. Onların bir qismi

öz ixtisaslarını valideynlərinin, müəllimlərinin, yaxınlarının təsiri ilə seçirlər, bir qismi isə bu barədə heç düşünmürlər. Universitetdə tələbələr arasında keçirilmiş anketdə də məhz bu problemin ölçülməsi ilə bağlı sual qoyulmuşdur.

Üçüncü cavabı verən tələbələrin əksəriyyəti Meşəçilik, Ekologiya, Su bioehtiyyatları, Fəlsəfə, Filologiya, Dizayn ixtisaslarındandır.

Xüsusilə də Fəlsəfə, Ekologiya, Meşəçilik, Su bioehtiyyatları və akvakultura ixtisaları ve bu sahəyə yaxın digər ixtisalar üzrə tələbələrin seçdikləri ixtisasa münasibətlərini dəyişdirmək və bu sahələrin təkcə Azərbaycan üçün deyil, eyni zamanda bütün dünya üçün də prioritet olduğunu izah etmək məqsədilə tələbələr arasında təbliğat xarakterli görüşlər keçirmək olar. Eyni zamanda gələcəkdə dərk edərəkdən ixtisas seçimi etmək üçün məktəblilərlə də belə görüşlər təşkil etmək məqsədəuyğun görünür.

Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin, xüsusən sənayenin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanılması, təbii ehtiyatlardan səmərəli istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi qlobal problemə çevrilmişdir.

Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə istiqamətində "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı", "Yerin təkinin geoloji öyrənilməsinə və mineral-xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı” və digər proqramlar çərçivəsində tədbirlər həyata keçirilir.

Bununla yanaşı, "Azərbaycan Respublikasında meşələrin mühafizəsi və davamlı inkişafına dair 2022-2030-cu illər üçün Dövlət Proqramı”nın və "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın layihələri hazırlanır.

Dünyanın ekoloji problemlər yaşadığı bir dövrdə, ölkəmizin iqtisadiyyatının neft sektorundan qeyri-neft sektoruna keçdiyi bir vaxtda, (xüsusən də kənd təsərrüfatının inkişaf etdirilməsinə üstünlük verildiyi üçün) bu sahə üzrə mütəxəssislərin ölkəmiz üçün gərəkli ola biləcəklərini izah etmək fərqli nəticələr əldə etməyə kömək olar.

Fəlsəfə cəmiyyətin inkişafının bütün mərhələlərinə təsir göstərən sahədir. Fəlsəfə üzrə mütəxəssislər dünyanın və cəmiyyətin dərk edilməsinə daha fərqli yanaşma, ətrafda baş verən hadisələri düzgün qiymətləndirmək bacarıqlarına malik olurlar. Cəmiyyətin yeni ideyalar və fikirlərlə təchizi üçün yeni düşüncə yaratmaq qabiliyyətinə malik insanlara ehtiyac var. Cəmiyyətimizin istər sosial, istərsə də hüquqi istiqamətdə inkişafını düzgün yönləndirmək üçün bu sahənin mütəxəssislərinə ehtiyac olduğunu izah etmək olar.

**Sual-2-Universitetin təhsil keyfiyyəti necədi?**

Təhlillərdən göründüyü kimi pis- 10,3% cavabını verən tələbələrin əksəriyyəti Psixologiya ixtisası üzrədir. Keçilən dərslərin mövzularının müasir dövrə xitab etmədiyini, ya da gərəksiz məlumat toplusu olduğunu qeyd edirlər.

**Tövsiyyə**

- işçi qrupun yaradılması, psixologiya ixtisasının tədris planları və təhsil proqramları təhlil edilməsi məqsədə uyğundur.
- Fənn proqramlarının monitorinqinin keçirilməsi və mövzuların nə dərəcədə aktual olduğunun təhlil edilməsi məqəsədə uyğundur
- İşçi qrup bu sahədə fəaliyyətində xarici təcrübələri nəzərə alsa müsbət təsiri olar
- Dizayn ixtisası üzrə dərslərin monitorinqi təşkil edilməli.
- Dərs zamanı istifadə olunan əyani vəsaitlərin səviyyəsi (gərəkərsə kənardan dəvət olunan  mütəxəssislər tərəfindən) qiymətləndirilməlidi.

- İngilis dili və ədəbiyyatı müəllimləri: Zahidova Mehri, Cihangirli Təbərrük, Günay Vəlibəylinin
- dərsləri monitorinq sektoru tərəfindən bir müddət izlənilməsi doğru olardı.
- Tələbə şikayətləri öz təsdiqini taparsa tədbir görülməsi üçün rəhbərliyə bildirilməsi doğru olardı.

**Sual - 3 - Universitet həyatını tənzimləyən qaydaları hardan öyrənirsiniz?**

Qərarları öyrənə bilmirəm cavabını verən tələbələrin əsas şikayətləri:

1. Hər kəs fərqli şey deyir

2. Verilən qərarlar tədris ilinin sonunda deyilir və bu çox böyük problemdir

3. Hər gün yeni qərar çıxır və hər dəfə dəyişən qərarlar heç yaxşı olmur.

**Tövsiyyə -**

-Tələbə həyatını əhatə edən dəyişməyən qaydalar haqqında tələbə əl kitabçası hazırlanması və paylanması məqsədəuyğundur.

-Zəruri olduğu halda yeni qərarlar alındıqda ya növbəti semetrdən ya da növbəti tədris ilindən tətbiq olunması doğru olardı.

-Yeni qərarlarla əvvəl struktur bölmələrin tanış edilməsi doğru olardı.

-Cari tədris ilinin sonunda və ya yeni tədris ili başlamadan tələbələrlə görüş keçirilməsi və edilmiş dəyişikliklərin onlara izah edilməsi məqsədə uyğundur.

**Keyfiyyət göstəriciləri ilə bağli suallar**

Sual 1- Dekanlıq tələbələrin problem və təkliflərinə diqqətlə yanaşır və operativ şəkildə həll edir

Razı deyilem cavabları

1. Siyasi və ictimai elmlər dekanlığı

2. İqtisadiyyat və biznes dekanlığı

**Tövsiyye:**

-hər iki dekanlıqda əməkdaşlarla görüşmək, problemin qaynaqlarını araşdırmaq, gərəkirsə əməkdaşları kommunikasiya, problem çözmə ilə bağlı təlimlərə yönləndirilməsi doğru olar.

**Sual-3- Bədii fəaliyyətlər qaneedici səviyyədə həyata keçirilir**

**Sual-4-İdman fəaliyyətləri qaneedici səviyyədə keçirilir**

**Sual -5 - Sosial tədbirlərin sayı qaneedici səviyyədədir və maraq və bacarığıma uyğun klublar fəaliyyət göstərir**

-Razı deyiləm yazan tələbərin rəylərinə əsasən universitetdəki mövcud fəaliyyətlərdən başqa 3,4,5-ci sualları əhatə edən tələbələrin təkliflərini əks etdirən sorğular hazırlamaq olar.

-Təklifləri təhlil edib istiqamət götürmək olar.

**2. Sənədlər və tədris metodlarının təkmilləşdirilməsi üzrə fəaliyyət:**

**2.1**. Keyfiyyət Təminatı Siyasətinin yeni redaksiyası işlənib hazırlanmışdır. Universitet Elmi Şurasının 12.10.2022-ci il tarixli, 02 saylı protokolu ilə təsdiq edilmişdir. Siyasətin bütün universitet üçün əlçatanlığını təmin etmək məqsədilə həm Saytımıza həm də SharePointa yüklənmişdir. Bundan əlavə qrafik üzrə Universitetin bütün strukturlarında Siyasətin bölüşülməsi üçün görüşlər keçirilmiş, siyasətin qısa versiyasının plakatı çap etdirilərək universitetin dəhlizlərindən

asılmışdır (plakatın üzərindəki QR kodu oxutmaqla sənədin tam versiyasını elektorn formatda əldə etmək olur). Siyasətin tam versiyası nəşr etdirilərək kitabça halında struktur bölmələrə paylanmışdır.

**2.2.** Təlim VƏ tədrisin monitorinqi və qiymətləndirilməsi üçün təlimatlar təkmilləşdirilmiş, EŞ-nın 12.10.2022-ci il tarixli, 02 saylı protokolu ilə təsdiq edilmişdir. Sənəd ümumi müddəalar, monitorinqin məqsədi və vəzifələri, monitorinqin təşkili, monitorinq iştirakçıları, hüquq və vəzifələri yekun müddəalar olmaqla beş bölmədən ibarətdir. Sənədə 4 cədvəl əlavə edilmişdir. Akademik heyətin bu təlimatlara əlçatanlığını təmin etmək üçün sənəd Share Pointa yüklənmişdir.

**2.3.** Keyfiyyət Təminatı mərkəzinin 2023/2024-cü tədris ili üçün fəaliyyət planı iyun ayında hazırlanıb təsdiq edilmişdir.

**3. Daxili audit fəaliyyəti üzrə:**

**3.1.** Qarşımızda duran digər bir məsələ də Elm və Təhsil Nazirliyinə təsdiq olunmaq üçün göndərilən fənn proqramlarının cari təhsil proqramına uyğunluğunun yoxlanması idi. Bu iş Tədris Metodiki Şura ilə birlikdə yoxlanılmışdır. Onu da qeyd etmək lazımdır ki, bəzi kafedralarda 2020-ci ildə təsdiq edilmiş təhsil proqramlarına uyğun qrifli proqramların azlığı ilə qarşılaşdıq. 2022/2023-cü tədris ili üçün təsdiq edilmiş proqramların hesabatını Tədris Metodiki Şura təqdim etmişdir. Hesabata görə "Azərbaycan dili və ədəbiyyatı" kafedrası üzrə 4 fənn, "Mexanika və riyaziyyat” kafedrası üzrə - 9 fəndən, "Tarix və fəlsəfə kafedrası" üzrə - 4 fənn, "Politologiya, psixologiya və sosial iş" kafedrası üzrə -1 fəndən proqramlar Elm və təhsil nazirliyində təsdiq etdirilmişdir.

**3.2.** İşçi proqramların standartlara və tələblərə uyğun tərtib olunmasını təmin etmək üçün hər tədris semestrinin başlanğıcında tədris prosesinin monitorinqi sektoru kafedralarla birlikdə sillabusların standartlara uyğun hazırlanmasını yoxlamaq məqsədilə sənədlərə baxışlar keçirib. Standartdan kənar, düzgün hazırlanmamış sillabusların yenidən işlənməsi üçün tövsiyyələr verilmiş və tez bir zamanda düzəlişlərin edilməsi tələb edilmişdir.

**3.3.** Universitetdə müəllimlərin reytinqlərinin müəyyən edilməsi üçün tələbələr arasında keçirilən sorğular və müəllimlərin özünüqiymətləndirməsi ilə yanaşı, müəllimlərin həmkarları və rəhbərlik tərəfindən də qiymətləndirilməsi vacibdir. Bu məqsədlə universitetin müəllim və işçi heyətinin fəaliyyətinin monitorinqi üçün öncədən tutulmuş cədvəl üzrə açıq dərslər təşkil olunmuşdur. Universitetin 15 kafedra və 1 mərkəzi üzrə açıq dərslər keçirilmişdir. Dərslərin kafedralarda müzakirələri təşkil olunmuş, aparılmış dərslər ətraflı təhlil edilmişdir. Gənc müəllimlərə həmkarları tərəfindən tövsiyyələr edilmişdir. Açıq dərslər ümumilikdə qənaətbəxş kimi qiymətləndirilmişdir. Keçirilmiş açıq dərslərin

nəticələri əsasında monitoring sektorunun rəyləri hazırlanmış və rəhbərliyə təqdim edilmişdir.

**3.4.** Elektron jurnal konsepsiyasının davamlılığını təmin etmək üçün Mütəmadi olaraq monitorinq sektoru tərəfindən yoxlamalar aparılır. E-jurnalların düzgün doldurulması ile bağlı problemlər olmasa da, müəllimlərin şəxsi kabinetlərinə elektron materialların yüklənməsi ilə bağlı problemlər aşkarlanıb. Problemin aradan qaldırılması üçün kömək məqsədilə kafedra müdirlərinin və laborantların bu prosesə cəlb olunması tövsiyyə olunub.

**3.5**. Tələbələr arasında məmnunluq sorğularının keçirilməsi təmin edilmişdir. Sorğular Tələbə Məlumat Mərkəzi tərəfindən onlayn platformada, anonimlik təmin edilməklə keçirilmişdir. Statistik hesabat hazırlanmış və nəticələr təhlil edilərək rəhbərliyə, fakültə və kafedralara təqdim edilmişdir.

**3.6.** Professor-müəllim heyəti arasında onlayn platformada sorğuların keçirilməsi təmin edilmişdir. Nəticələr təhlil edilmişdir. Müvafiq kafedralara bildirişlər edilmişdir.

**4. Xarici audit fəaliyyəti üzrə:**

**4.1.** Özünüqiymətləndirmənin təşkili və həyata keçirilməsi və akkreditasiya hazırlıqlarında konsultasiya dəstəyini təmin etmək məqsədilə mərkəz daxilində işçi qrup yaradılmışdır. Universitetin fakültə və kafedralarında cədvəl üzrə baxışlar keçirilmişdir. Hesabatı əlavə olunur.

**5. Maarifləndirici fəaliyyət üzrə:**

**5.1.** Universitetin akademik və inzibati heyətinin E -jurnaldan səmərəli şəkildə istifadəsini təmin etmək məqsədi ilə istifadə qaydalarını öyrədən videoçarx hazırlanib universitetin saytına yerləşdirilmiş və eyni zamanda toplantı keçirilərək əyani şəkildə izah edilmişdir

**5.2.** Qərbi Kaspi Universitetinin müəllim heyəti üçün Universitetin Təhsildə keyfiyyətin təminatı şöbəsinin müdiri Vonda Qrobbelaar tərəfindən təlim keçirilib. Təlimdə effektiv ünsiyyət, yaradıcı düşüncə və emosional intellekt, eyni zamanda bütün bunların təhsil mühitində keyfiyyətə təsiri mövzuları əhatə olunub. Nəzərdən keçirilən mövzuları daha praktik şəkildə izah etmək üçün iştirakçılar arasında müxtəlif oyunlar oynanılıb.

https://wcu.edu.az/az/news/muellimlerimiz-uchun-telim-teshkil-olunub

**5.3.** Qərbi Kaspi Universitetinin müəllim heyəti üçün Universitetin Təhsildə keyfiyyətin təminatı şöbəsinin müdiri Vonda Qrobbelaar tərəfindən təlim keçirilib. Təlim "Tələbə yönümlü təhsil" mövzusuna həsr olunub. Nəzərdən keçirilən mövzuları daha praktik şəkildə izah etmək üçün iştirakçılar arasında müxtəlif oyunlar oynanılıb.

https://wcu.edu.az/az/news/muellimlerimiz-uchun-telim-kechirilib

**6. Əməkdaşlıq fəaliyyəti üzrə:**

6.1. Beynəlxalq standartlaşdırma sertifikatlarının alınması məqsədilə Türk standartlar Insititutu ilə müqavilə bağlanmışdır. TSE-nin Eğitim Dairesi Başkanlığı tərəfindən 11.04.2022-12.04.2022-ci il tarixlərində Keyfiyyıtin İdarəedilməsi Sistemi üzrə Ümumi təlim proqramı üzrə, 13.04.2022-ci il tarixində, TSEn İSO-9001: 2015 Keyfiyyətin İdarəedilməsi Sistemində "Sənədləşmə təlimi" proqramı üzrə və 13.05.2022 14.05.2022-ci il tarixlərində "Daxili texniki təlim" proqramı üzrə təlimlər keçirilmişdir. TSE tərəfindən Universitetdə standartların tələblərinə əsasən inteqrasiya edilmiş edarəetmə sistemlərinin qurulması və sertifikatlaşdırılması üçün audit təşkil olunmuşdur.

Keyfiyyıt Təminatı Mərkəzinin müdiri

Wonda Grobbler